# MÜBARİZ KEŞİKDƏ

9 avqust 2018-ci il
Cümə axşamı
№ 31 (3395)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# QARABAĞ, BÖYÜK VƏTƏN MÜHARİBƏLƏRİ, ÇERNOBIL ƏLİLLƏRİNƏ VƏ ŞƏHİD AİLƏLƏRİNƏ MƏNZİLLƏRİN VƏ AVTOMOBİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ OLUB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK EDİB



Avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına məlumat verib ki, nazirlik "ŞA İnşaatçı" Mənzil Tikinti Kooperativi tərəfindən inşa olunan binadan ümumilikdə 35 mənzili satın alıb. Bu mənzillərdən 23-ü Qarabağ müharibəsi əlillərinə, 12-si isə şəhid ailələrinə verilib.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Daimi qaz, su və işıqla təchiz edilən mənzillər yüksək səviyyədə təmir olunub, bütün zəruri avadanlıq, o cümlədən mətbəx mebeli quraşdırılıb. Bundan başqa, mənzillərdə kombi sistemi də qurulub.

Sonra Prezident İlham Əliyev əlil və şəhid ailələrinin üzvləri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim edib.

Ümumilikdə, 136 vətəndaşa "Khazar LX" avtomobili verilib. Onlardan 110-nu ərazi bütövlüyümüzün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə Böyük Vətən müharibəsi və Çernobıl əlilləridir.

Prezident İlham Əliyev sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır. Dövlətin bu sahədə gördüyü işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində Fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur. Bu gün Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzil və avtomobillərin verilməsi də Prezident İlham Əliyevin bu kateqoriyadan olan insanlara göstərdiyi dövlət qayğısının növbəti nümunəsidir.

Sonda xatirə şəkli çəkdirilib.



**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 1-də Şəhərsalma fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 1-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Yuli Solomonoviç Qusmanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 1-də kino xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi və bir qrupuna fəxri adların verilməsi haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 2-də dövlətimizin başçısı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Avqustun 3-də Azərbaycan Prezidenti İlham Əliyev sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 3-də ölkəmizin rəhbəri Azərbaycan aşıq sənətinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Paşa oğlu Qasımlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 4-də Samux rayonunun Yenikənd-Köbər-Qaraağaclı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 4-də Mi-8" helikopterinin Krasnoyarsk diyarında qəzaya uğraması nəticəsində insan tələfatı ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 6-da Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və liman ərazisində sərnişin terminalının tikintisi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 6-da Azərbaycan Prezidenti İlham Əliyev baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı avqustun 7-də Təzəpir məscidi kompleksində təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 7-də ölkəmizin rəhbəri Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

# AZƏRBAYCAN ÇOX BÖYÜK UĞURLARA İMZA ATIR

## HƏDƏFLƏR VƏ VƏZİFƏLƏR BUNA XİDMƏT EDİR

Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə bu yaxınlarda Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda ilin birinci yarısında həyata keçirilən sosial-iqtisadi siyasətin faktiki nəticələri, ordu quruculuğu, beynəlxalq əməkdaşlıq məsələləri, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün son illər görülən işlər, bu sahədə dövlətimizin həyata keçirdiyi tədbirlər barədə söhbət açılıb, yarım ilin yekunları geniş təhlil olunub, qarşıda duran vəzifələr, onların həlli yolları göstərilib...

# YUBİLEY İLİNİN BURAXILIŞI

"Mübariz keşikdə"nin oxucuları "Asayişin keşiyində" jurnalının dördüncü sayına da şahidlik etdilər. Burda meydanımız bir az da genişləndi, nə mövzudan kasadlıq çəkdik, nə də ki, söz qarşısında aciz qaldıq. Düşüncəmizi, baxışlarımızı, hissimizi, həyəcanımızı oxucularımıza elə təqdim etdik ki, bu həm də bir təbliğat oldu. Yəni qələmimizə söykənib həm maarifləndik, həm də maarifləndirdik...

*Bax səh.2.*

# AZƏRBAYCAN ÇOX BÖYÜK UĞURLARA İMZA ATIR

## HƏDƏFLƏR VƏ VƏZİFƏLƏR BUNA XİDMƏT EDİR

**Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə bu yaxınlarda Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda ilin birinci yarısında həyata keçirilən sosial-iqtisadi siyasətin faktiki nəticələri, ordu quruculuğu, beynəlxalq əməkdaşlıq məsələləri, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün son illər görülən işlər, bu sahədə dövlətimizin həyata keçirdiyi tədbirlər barədə söhbət açılıb, yarım ilin yekunları geniş təhlil olunub, qarşıda duran vəzifələr, onların həlli yolları göstərilib.**

**Əvvəli ötən sayımızda.**

İlin yarısında görülən işlərin nəticəsi olaraq, 2018-ci ilin ilk 5 ayında qeyri-neft ixracı 20 faiz, o cümlədən sənaye məhsulları 27 faiz, kənd təsərrüfatı məhsulları 22 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan subyektlərin sayı 34 faiz artıb, ixrac məhsullarının çeşidi genişlənib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin yekun nitqində qeyd olunub ki, son illər ərzində aparılan islahatlar öz gözəl bəhrəsini vermişdir. Əgər bu islahatlar aparılmasaydı, bu qədər böyük iqtisadi uğurlara çata bilməzdik. Ancaq bu islahatları daha da dərinləşdirməliyik. Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanıqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin.

Qarşıda duran vəzifələrdən danışan ölkə başçımız deyib ki, iqtisadi və maliyyə sektorlarında maksimum şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq imkan verəcək ki, Azərbaycan iqtisadiyyatı daha inamla inkişaf etsin, qeyri-neft sektorumuza xarici sərmayə daha böyük həcmlə qoyulsun. Son vaxtlar vergi və gömrük sistemlərində aparılan islahatlar öz bəhrəsini verir. Bunlar bir-birinə bağlı olan sahələrdir və islahatlar hər iki sahədə paralel olaraq aparılmalıdır və aparılır.

Sosial təminat sahəsində də ciddi islahatlar aparılmalıdır. Sosial sahənin şəffaflaşdırılması və beynəlxalq təcrübə əsasında fəaliyyət göstərməsi iqtisadi inkişafımıza böyük təkan verəcək.

Korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi mübarizə aparılacaq. Biz elə etməliyik ki, korrupsiya hallarının baş verməməsi üçün institusional mexanizmlər işə düşsün.

İlin əvvəlində qarşıya vəzifə qoyulmuşdu ki, qazlaşdırma bu ilin sonuna qədər 95 faizə çatacaq. İçməli su layihələrinin icrası, avtomobil yollarının tikintisi davam edir. Bu il plana görə 2 min kilometr yeni avtomobil yolu salınmalıdır və minimum 600 kənd yeni yollarla təmin edilməlidir.

Sosial infrastrukturla bağlı bütün işlər plan üzrə gedir. Bu il 137 modul tipli məktəb tikilib istifadəyə verilməlidir. Bakı şəhərində 12 məktəb əsaslı təmir edilməlidir. Altı xəstəxana istifadəyə verilməlidir. Onlardan biri Naftalan şəhərində açılıb. Beş şəhərdə-Qazax, Qobustan, Şəmkir, Quba, Goranboy şəhərlərində xəstəxanalar bu ilin sonuna qədər, ya da gələn ilin əvvəlində istifadəyə veriləcək.

Bu il iki Olimpiya İdman Mərkəzi açılmalıdır, ikisində tikinti işləri gedir. Dörd min məcburi köçkün ailəsi yeni evlərlə təmin edilməlidir. Qobuda özəl sektor tərəfindən mindən çox ailə üçün böyük şəhərcik açılıb.

İnvestisiya təşviqi mexanizmi işə düşüb, bunun çox böyük əhəmiyyəti var. Bu sistemi tətbiq edilməsəydi 2,5 milyard manat sərmayəni özəl sektor qeyri-neft sektoruna qoymazdı. Məhz investisiya təşviqi sənədinin işə düşməsi nəticəsində 2,5 milyard manat dəyərində olan layihələr indi icra edilir. Bu, vaxtında atılmış addım idi, öz səmərəsini verir. Gələcəkdə bu sistem öz səmərəliliyini göstərəcək.



Yaxın gələcəkdə iki böyük zavod işə düşəcək. Hər iki zavod Sumqayıtda yerləşir - polimer və azot gübrələri zavodları. Onlar həm daxili bazarı tam təmin edəcək, idxaldan asılılıq aradan qaldırılacaq, həm də böyük ixrac imkanı yaranacaq. Bu zavodların işə düşməsi müstəqillik dövründə sənaye sahəsində çox önəmli hadisələr olacaq.

Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illərdə kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Texnika parkı tamamilə yenilənib. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək, ancaq onun əsas hissəsi həll olunub.

Təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq. Keçən il 10 min texnika alınıb. Ancaq bu sahədə bundan sonra şəffaflıq tam təmin edilməlidir.

Qarşıda duran əsas vəzifə bu sahəni yüksək texnoloji sahəyə çevirməkdir.

Yeni yaradılan Qida Təhlükəsizliyi Agentliyinin qarşısında çox ciddi vəzifələr qoyulub. Qida təhlükəsizliyi bu gün çox önəmli sahədir. Həm Azərbaycana gətirilən ərzaq məhsulları standartlara tam uyğun olmalıdır, eyni zamanda, Azərbaycanda istehsal edilən məhsullar beynəlxalq standartlara uyğun olmalıdır. İxrac edəcəyimiz məhsullar da elə səviyyədə olmalıdır ki, ixracla bağlı problem olmasın. Bunun üçün Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti çox yüksək səviyyədə təşkil edilməlidir. İndi bu işlər gedir. Laborator tədqiqatlar, torpaqların təhlili, münbitliyi – bu işlər çox böyük dəqiqliklə aparılmalıdır və fermerlərə tövsiyə verilməlidir ki, hansı torpaqda hansı məhsul əkilərsə bunun daha çox səmərəsi olacaq.

Görülmüş işlər arasında böyük əhəmiyyət daşıyan dəmir yolu layihələridir. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Şərq-Qərb dəhlizi işə salındı. Ələt limanının fəaliyyətə başlaması bu zənciri tamamladı. İndi Bakı-Yalama dəmir yolunun modernləşdirilməsi layihəsi icra edilir. Gələn ildən Bakı-Astara yolunun modernləşməsinə başlanılacaq. Bakı-Qəbələ dəmir yolunun tikintisi layihəsi icra edilir. Bu da turizmin inkişafına böyük dəstək olacaq. Bakı-Gəncə sürət qatarının xəttə buraxılması ilin sonuna qədər nəzərdə tutulur. Vətəndaşlar Bakıdan Gəncəyə rahat, komfortlu qatarlarla getməyə üstünlük verəcəklər. Ən qabaqcıl firmaların sərnişin qatarları da alınır. Şəhərətrafı dəmir yolunun tikintisi layihəsi uğurla icra edilir.

***Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan dünya miqyasında rəqabətqabiliyyətliliyinə görə 35-ci, yol infrastrukturunun inkişafına görə 36-cı, inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü, ümumi infrastrukturun inkişafına görə dünya miqyasında 26-cı, xalqın iqtidara dəstəyinə görə dünya miqyasında 20-ci yerdədir. Bütün bu rəqəmlər göstərir ki, Azərbaycan hansı böyük uğurlara imza atıb.***

***Azərbaycan inkişaf edir, bütün hədəflərinə, yaxın və uzaq məqsədlərinə çatır, dünyaya əsl örnək olur. Bunlar görülən və görünən işin az bir hissəsidir. Bütün bunların arxasında müdrik siyasət, polad iradə, əzmkarlıq, Vətən, xalq təəssübü, Vətən və xalq sevgisi dayanır. Bütün bunların əsasında xalq-iqtidar birliyi, güvəni, dəstəyi və qarşılıqlı etimad dayanır. Ölkəmizdə hökm sürən və bu gün də ən dəyərli qələbələrimizdən olan ictimai-siyasi sabitlik də məhz bu mənbədən, bu zəmindən qidalanır və göz bəbəyi kimi qorunur.***

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# DÖYÜŞƏN HEYKƏLLƏR, YANAN HEYKƏLLƏR...



**Tələbə və ya şagird olduqlarını bilmədim. Onu bildim ki, tariximizdən, ədəbiyyatımızdan xəbərsizdilər.**

Azərbaycan kinoteatrının qarşısında Xan qızı Natəvanın heykəlinin çevrəsinə əkilən güllər ona xüsusi gözəllik verirdi və bu diqqətimdən yayınmadı. Heykəlin şəklini çəkəndə birdən yaxınlıqdan keçən iki-üç qızın yarırus, yarı ana dilimizdə: “Bu xaricilər bunun şəklini nəyə çəkirlər e, bu quru heykəldə nə görüblər axı”,- deməsi bir anlıq başıma od ələdi, ovqatımı korladı, elə bil ürəyimdə mərmi partladı. Özümü güclə saxladım.

Zaman-zaman yağmalanan Vətənimin, soyqırımlara məruz qalan xalqımın XXI əsrdə yaşayan övladları Xan qızı Natəvanı tanımırlar. Təəssüf, min təəssüf...

Əcnəbi musiqilərin qulağımızı yağır etdiyi, beynimizi döyəclədiyi Fəvvarələr meydanında gəzib-dolaşan onlarla soydaşım bəlkə də bu heykəlin kimin olduğunu bilmir. Haradan bilsinlər? Və yaxud da rəhmətlik Sabirin “Oxutmuram, əl çəkin” şerinin tonunda: “Bilmirəm, əcəb edirəm, bilməyə borcluyam ki”,- deyənlər nə çox...

Qınayıram, özümü də, sizi də, elə hamımızı da. Belə “uşaqları” görəndə yada ilk düşən müəllimlər olur. Bəli, onlar da qınanılasıdırlar. Niyə? Heç olmasa o uşaqları dörd divar arasından çıxarıb ədəbiyyat dərslərindən birini də elə bu heykəlin yanında keçsinlər. Uşaqlar Natəvanı, tariximizi, soyumuzu, kökümüzü, lap elə mayın səkkizində yoxluğunun 26-cı ildönümünün ağrısını çəkdiyimiz Şuşanı tanısınlar. Ən azından Bülbülün, Natəvanın, Üzeyir bəyin güllə-boran edilmiş heykəllərini gözləriylə görsünlər. Görüb bilsinlər ki, düşmənlərimiz camızın, qanımızın qəsdinə durduğu kimi, min illər boyu yaratdığımız maddi-mənəvi sənət əsərlərinin, tarixi abidələrimizin, heykəllərimizin də qəniminə çevriliblər. Şair Bəhman Vətənoğlu demiş:

*Ehtibar, etiqad olub sər - səri,*
*Ülfət də azalıb illərdən bəri,*
*Siz ey məmləkətin müəllimləri,*
*Ülfət dərsi keçin bu uşaqlara.*

*Bilsin doğrusunu, bilsin düzünü,*
*Seçsin ləpirini, görsün izini,*
*Dərindən tanısın özü-özünü,*
*Millət dərsi keçin bu uşaqlara.*

*Vətən satanları tanımaq ücün,*
*Vətən alanları tanımaq ücün,*
*Düşmən olanları tanımaq ücün,*
*NIifrət dərsi keçin bu uşaqlara.*

*Elimlə göylərə uçmasanız da,*
*Hippokrat andını içməsəniz də,*
*Kimləri, nələri keçməsəniz də,*
*Qeyrət dərsi keçin bu uşaqlara...*

*Hafiz Təmirov,*
*polis mayoru*

# YUBİLEY İLİNİN BURAXILIŞI

**“Mübariz keşikdə”nin oxucuları “Asayişin keşiyində” jurnalının dördüncü sayına da şahidlik etdilər. Burda meydanımız bir az da genişləndi, nə mövzudan kasadlıq çəkdik, nə də ki, söz qarşısında aciz qaldıq. Düşüncəmizi, baxışlarımızı, hissimizi, həyəcanımızı oxucularımıza elə təqdim etdik ki, bu həm də bir təbliğat oldu. Yəni qələmimizə söykənib həm maarifləndik, həm də maarifləndirdik.**

Bu sayımız-jurnalımızın yubiley buraxılışı yəqin daha da yaddaqalan olacaq. Çünki böyük bayramların, əlamətdar günlərin sevincini, qürurunu yaşadıq, onu yazıya köçürməyi də unutmadıq. 100 il bundan öncə qurulmuş cümhuriyyətimizin dayaqları üstündə ucalan, dünyanın hansı nöqtəsindən baxsan, bayrağı görünən, səsi eşidilən müasir müstəqil Azərbaycanın regionun ən qüdrətli, güclü dövləti olduğunu indi artıq az qala hamı etiraf edir.




Bu ilin Azərbaycan Polisinin keçdiyi bir əsrlik yolun qızıl dövrü kimi yadda qalacağına heç kimin şübhəsi yoxdur. Həm də bu il sıralarımıza qoşulan, ilk zabit rütbəsi alaraq görəv başına yollanan məzunlar üçün də yaddaqalan oldu. Yubiley sevinci ilə buraxılış həyacanını onlar da yaşadılar. Veteranlarımızı da unutmadıq.

Bu il itkilərsiz də ötüşmədik. Müstəqilliyimizə, dövlətçiliyimizə yağı kəsilənlərin əlaltılarının atdıqları güllə, sapladıqları bıçaq polisimizə dəydi. İki igid həmkarımızı-İlqar Balakişiyevi və Səməd Abbasovu son mənzilə yola saldıq...

Yenə axtarışdayıq: əlimiz çatan, ünümüz yetən hər yerdə yaxşıların, ürəyi Vətən eşqilə döyünənlərin səsinə, sözünə, əməlinə söykək olmaq üçün biz də qələmə daha möhkəm sarılmışıq. Xeyirli- uğurlu olsun hamımıza...

***M.K.***

# ZORƏN TURİST

**Feysbukda vaxt öldürənlərə ömürlərinə qənim kəsilənlər kimi baxırdı. O, vaxtın qiymətini yaxşı bilirdi. Ucqar dağ kəndində müəllim işləməklə gün-güzəran qurmaq istəyən, üç balanın gələcəyini düşünərək məhz bura üz tutan müəllimin ən böyük arzusu doğulduğu yerdən çox-çox uzaqlarda olan bu kəndin bütün balalarına təkcə oxumağı, yazmağı öyrətmək deyildi, həm də onları xoşbəxt görmək idi...**

Bayram tətili yorğunluğunu çıxarmaq üçün lap göydəndüşmə oldu. Həyat yoldaşının bir viktorinada udduğu noutbukda dünya ədəbiyyatından seçmə əsərlərin adını yazıb onların elektron variantını axtardı. Kompyuterə xeyli elektron kitab yüklədi. Oxumaq onunçün istirahət demək idi...

Beynindən nə keçdisə, feysbukdakı profilini qurtdalamağa başladı. Gələnləri saf-çürük edəndə: “Siz Türkiyəyə tətil kupunu qazanmısınız” mesajını birnəfəsə oxudu. Sevincindən ürəyi az qaldı ki, yerindən qopsun. Bu yaşa çatmışdı, ancaq bircə kərə olsun "Biləcəridən o yana" keçməmişdi…

Bəlkə də yaşıdlarının çoxu İranı, Türkiyəni, elə Gürcüstanın özünü su yoluna döndərib. O isə...

Yenə də xəyalı çox uzaqlara getdi. Yadına düşdü ki, böyük bacılarına alınan paltarlar, çox tez cırılırdı və köhnəlirdi. Çünki onları düz dörd qız növbə ilə geyinirdi...

Dünyanın rəngi onu idarə edənlərin ovqatı ilə üst-üstə düşür. Əgər onlar sakit və ya bir-biri ilə mehribandırlarsa, demək, hələ bəşəriyyət rahat nəfəs ala bilər. İnsanların sıxıntı və ya keyf içərisində yaşamasına səbəbkar heç də təkcə Yaradan deyil, elə insan özüdür...

Mesajı dönə-dönə oxudu. İstədi ki, göstərilən əlaqə nömrəsinə zəng vurub dəqiqləşdirsin. Bəlkə səhv göndəriblər? Nə çoxdu Taclı adında adam.

Və birdən yadına düşdü ki, 5-6 ay bundan öncə turizm məkanları, dünyanın gəzməli-görməli yerləri ilə bağlı feysbukda bir turist şirkətinin keçirdiyi sorğuda iştirak edib.

Əri gələnə qədər evi yığışdırıb ocağa odun atdı. Çay dəmlədi. Güzgünün qarşısına keçib özünə baxdı. Xoşladığı paltarlarından birini geyinib bəzəndi. Həyətdə uşaqların səsi gəlmirdi. Çölə çıxıb uşaqları səslədi: "Ayxan, Alpay, Türkay, hardasınız?"

Bir də gördü ki, kirayə qaldıqları evin sahibəsi uşaqları başına yığıb onlara gicitikən ovxalayıb verir. Ətrafa yayılan təndir çörəyinin ətrini sinəsinə çəkib evdən bir-iki dilim pendir götürüb təndirin yanına gəldi.

Şər qarışmışdı. Toyuq-cücəni hinə doldurub pəyənin qapısını bağladı. Yenicə doğmuş Alagözü sağmaq üçün yerini rahatladı. İnəyin bir məməsini balasına saxlayıb ayağa qalxdı və buzovu anasının yanına buraxdı. Qıraqdan sakitcə onlara tamaşa etməyə başladı. İlahi, dilsiz, ağızsız heyvandı, amma gör ana şəfqətini, ana nəvazişini necə his eləyir, necə duyur...

Süfrəni hazırlayıb uşaqları da başına yığıb çörək yeyirdilər. Onlara baxıb gülümsədi və zarafatla: “Bəlkə, mən çıxım gedim atam evinə, bir az dincəlim”,- dedi. Dəniz: “Onda məni də apar”,- deyib mızıldandı...

*Ardı 3-cü səhifədə.*

# TƏDBİRLƏR DAVAMLI OLACAQ

**Abşeron Rayon Polis İdarəsinin bu ilin 6 ayında gördüyü işlərin yekunlarını-şəxsi heyətin cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində əldə etdiyi nəticələri öyrənmək üçün rəis, polis polkovniki Şəhriyar Şəmşirli ilə görüşdük.**



Öyrəndik ki, hesabat dövrü ərzində rayon ərazisində 694 cinayət baş vermiş, açılması 75,3 faiz təmin edilmişdir. Həmin cinayətlərdən 39-u ağır və xüsusilə ağır, 445-i az ağır, 201-i böyük ictimai təhlükə törətməyənlərdir. Qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılma göstəricisi 62, ağır və xüsusilə ağır cinayətlərin açılması 88,9 faizdir.

Söhbətimiz zamanı qeyd olundu ki, rayon ərazisində adam oğurluğu, adamları girov götürmə, banditizm və ya cinayətkar birlik yaratma faktları qeydə alınmamış, 79 cinayət törətmiş 25 nəfərdən ibarət 9 cinayətkar qrup zərərsizləşdirilmiş, RPİ üzrə 172 nəfər təqsirləndirilən şəxsdən 112 nəfəri tutulmuş, itkin düşmüş şəxslərdən 20-nin yeri müəyyən edilmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 18 fakt aşkarlanmışdır ki, bunlardan da 6-sı satış, biri əkin, 10-u saxlama olmuşdur. Qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin ümumi çəkisi 7 kiloqram 57 qram təşkil etmişdir ki, onlardan da 2 kiloqram 25 qramı güclü təsiredici vasitə olan heroindir. RPİ-nin əməkdaşları tərəfindən 2 əl qumbarası, 256 ədəd avtomat sursatı aşkar edilərək götürülmüşdür.

Rəis onu da dedi ki, vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu idarə rəhbərliyinin diqqətində olmuşdur. Şəxsi heyətin peşə və fiziki hazırlığının yüksəldilməsi istiqamətində konkret tədbirlər görülmüşdür.

Söhbətimizin sonunda polis polkovniki Şəhriyar Şəmşirli şəxsi heyətin cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi, rayon ərazisində kriminogen durumun nəzarətdə saxlanılması, insan hüquq və azadlıqları qorunması sahəsində görülən tədbirlərin davamlı olacağını diqqətə çatdırmışdır.

Bax səh.4.

# XİLASKAR POLİS

**Lənkəranda polis əməkdaşı rayon sakinini boğulmaqdan xilas edib. Hadisə Ürgə kəndində baş verib.**



Kənd sakini Ramil Mirzəyev Veravul çayının kənarında olarkən ayağı büdrəyərək suya yıxılıb. Ətrafdakıların cəhdlərinə baxmayaraq, onu çaydan çıxarmaq mümkün olmayıb. Bu vaxt ərazidə xidmət aparan Lənkəran Şəhər-Rayon Polis Şöbəsi Liman Polis Bölməsinin polis nəfəri, polis kiçik serjantı Taleh Fərzili kənd camaatının səsini eşidərək həmin səmtə gələrək boğulmaqda olan Ramili xilas edib. Daha sonra ona süni nəfəs verərək hadisə yerinə gələn Təcili Tibbi Yardım əməkdaşlarına təhvil verib.

R.Mirzəyevin qardaşı Rauf Mirzəyev polis əməkdaşının bu hərəkətini qəhrəmanlıq adlandırıb, özünün və ailəsinin adından ona təşəkkürünü bildirib. Deyib ki, əgər polis vaxtında ora yetişib kömək etməsəydi, qardaşı həyatını itirəcəkdi.

"Özünün də boğulmaq təhlükəsi olsa da, buna baxmayaraq, dibi dərin lil olan çaya atıldı və qardaşımı həyata qaytardı. Biz buna görə ona çox minnətdarıq"

Polis əməkdaşı isə bunu, sadəcə, vəzifə borcu hesab edir: "Yaxınlıqda xidmət aparırdım. Bu vaxt səs-küy eşitdim və çayda bir nəfər kənd sakininin batdığını dedilər. Ətrafdakılar cəhd etsələr də onu çıxara bilməmişdilər. Tərəddüd etmədən köməyə tələsdim və hərəkətsiz halda çayın dibində çökmüş Ramil Mirzəyevi çıxardım, ilkin tibbi yardım göstərib çağırışa gələn təcili tibbi yardım əməkdaşlarına təhvil verdim. Bir insanın həyatını xilas edə bildiyim üçün, əlbəttə, çox sevinirəm".

*Natiq Abdullayev,*
*Məhəmməd Rzayev*

# ZORƏN TURİST

*Əvvəli 2-ci səhifədə.*

Uşaqları yatızdırandan sonra noutbuku gətirib masanın üstünə qoydu. Mesajı açdı və oxumağa başladı. "Bir neçə ay bundan öncə bir sorğuda iştirak etmişdim. Belə boş şeylərə heç vaxt baş qoşmuram. Ancaq sən demə, boş şey deyilmiş. Budur, bax, hədiyyə qazanmışam."

Vurğun Taclını heç belə sevinən görməmişdi. Bəlkə də əlacı olsaydı, quş olub uçardı.

***"Taclı",-*** Vurğun bu sözü elə dedi ki, elə bil dünyanın ən ağır yükünü dili ilə çəkir.

***-Bəli.***

***-Televiziyadakı reklamlar, sosial şəbəkələrdəki sorğular, uduşlar hamısı boş şeylərdir. Bunu sən də yaxşı bilirsən, mən də. Vallah heç gözüm su içmir. Yadındadı, keçən il uşaqları da götürüb getdik Gədəbəyə. Nəyi pis idi. Uca dağlar, zümzüməli bulaqlar, qıjıltı ilə üzü Göyçədən bu tərəfə axan çaylar. Hə, elə yeri gəldi deyim. O Antalyadan, İzmirdən baxanda Göyçəni görə biləcəksən?***

Taclı bir söz demədi. Səhər tezdən uşaqların səsinə oyanan Vurğunun qulağı oğlu Alpayın sözlərini eşidəndən sonra elə bildi ki, Taclı uşaqları öyrədib. "Bəs, atam deyirdi ki, türklər bizim qardaşımızdı. Niyə bizi Türkiyəyə aparmır?"...

"Hazırlaş, sabah çıxırıq Bakıya. Gedək görək bizə nə hədiyyə ediblər.

Taclı uşaqları anasıgildə qoydu. Axşam uduş kuponunda yazılan vaxtda "İrəm palace" yazılmış iyirmi mərtəbəli göydələnin qabağında dayanıb bir xeyli tamaşa etdilər. Şəhərdən 3 il idi çıxmışdılar. Bakı tamam dəyişmişdi. İçəri keçib "Gəz, gör, sevin" turizm şirkətinin dəvətliləri olduqlarını bildirdilər. "İyirminci mərtəbə sağdan ikinci otağa yaxınlaşın". Resepşindəki qız ağzını sürüyənə kimi ikisinin də ürəyi üzüldü...

"Size nasıl yardımcı ola biliriz",- deyən göygöz saqqallı oğlana "Biz Türkiyədə tətil kuponu qazanmışıq",- deyəndə elə bil ki, oğlanın gözləri hədəqəsindən çıxdı. "OOOO, hoş gelmişsiniz, buyurun, şu qarşıdakı odaya geçelim"...

Böyük zala oxşayırdı. İçəridə 30-40 ailə vardı. Səs-küy, hələ üstəlik də otağı başına götürmüş musiqinin səsi adamın beynini gəmirirdi.

Yer göstərdilər. İkisi də oturdu. Tərslikdən masaları düz musiqi mərkəzinin yanında idi. "Bəlkə bu musiqinin səsini bir az alasınız. Ağız deyəni qulaq eşitmir" fikri deyəsən, arıq, gözləri pişik gözünə oxşayan, ana türkcəmizdə güclə danışan qızın xoşuna gəlmədi. Çünki bir anlıq oyanmış vulkan kimi üzü pörtdü. Cavab belə oldu: "Müdiriyyətimiz icazə vermir."...

Düz iki saat idi ki, burdaydılar. Şirkət özünü təqdim edirdi. (İlk təqdimat heç də ürəkaçan deyildi. Qarğabazarına oxşayırdı.)

"Sizə həm də sürprizimiz var. Əgər bir saat da səbirli olsanız, biləcəksəniz."

Evdən gələn zəngə Taclının "Boğazını silin, qızdırması düşsün" cavabı Vurğunu lap tıncıxdırdı. Bir-birinin üzünə baxdılar. Taclı: "Bəlkə sürpriz qalsın sonraya, biz gedək, çünki uşaq qızdırıb, həm də məni istəyir",- deyəndə şirkətin əməkdaşının "Uşaqdı da, keçib gedər", deməsi" laqeydlikdən başqa heç nə deyildi...

"Və sürpriz." İkisi də dərin bir nəfəs aldı. "Siz cəmi 2100 manata bizdən beş illik istirahət paketi də qazana bilərsiniz. Yəni hər ilə bir həftə düşür. Beş il Türkiyədə istirahət etmək. Bu yalnız sizin üçündür."...

Taclı Vurğunun üzünə baxdı. Sanki Taclının gözləri yalvarırmış kimi çığırırdı: "Bu şansı əldən qaçırmayaq".

"İlkin ödəniş çox azdır. Cəmi 600 manat. Və sonra müqavilə bağlanılır." Bunu da "pişik göz" qız dedi.

Üstümüzdə o qədər pul hardandı. Biz müəllim ailəsiyik. Özü də ucqar dağ kəndində dərs deyirik. O qədər ehtiyac var ki...Taclı yenə Vurğunun gözlərinə baxdı. Və sakitcə şirkət nümayəndəsinə çönüb: "İlkin ödəniş yüz manat olarmı",- dedi. "O zaman müdirimiz Alpər bəyi çağırım, görək o, nə deyir."

Onları qarşılayan şəxs yenə də "Buyurun, nasıl yardımcı ola bilirim"i bu dəfə daha arxayın şəkildə dedi. "Öyrətmənlərə güzeşt ederiz."...

Yüz manatı alıb müqaviləyə öncə o, sonra Taclı imza atdı. Hələ üstəlik, ilk müqaviləyə imza atan ailə kimi onları digər ailələr alqışladılar da...

Saat 21:30-da ordan çıxdılar. Hələ metroya bir xeyli piyada gedəcəkdilər. Birdən Vurğun: "Bəs, onlar bizə niyə çek verməlidilər. Axı, pul verməmizlə bağlı bizə çek verilməliydi. Mənim gözüm su içmədi. Həm musiqinin səsinin elə yüksək verilməsi, həm də bəzi nüanslar onların fırıldaq olduğundan xəbər verir."

Taclı yolboyu susdu və heç nə demədi. Ertəsi gün günorta Vurğun turzm şirkətinə zəng vurub müqaviləyə xitam vermək istədiklərini bildirəndə xəttin o başından elə dünənki "pişik göz" qızın "Siz onda əlavə olaraq 215 manat cərimə ödəməlisiniz",- deyib hədələyici bir tonla danışması artıq kələfin ucunun tapılması demək idi. Onları, daha doğrusu, onlar kimi neçə ailəni aldatmışdılar...

Biz çox qəribə millətik. Bəzən kimsə bizi aldadıb pulumuzu alanda və ya səmimiyyətimizdən istifadə edəndə və çox sonradan bunu anlayanda, "Əşi, cəhənnəmə ki, deyirik". Haqlı ola-ola başımızın ağrımasını istəmirik. Bütün bunlar ya qanunları bilməməyimizdəndir, ya da ki, özümüzü əziyyətə verib mübarizə aparmırıq...

Vurğun Taclıya bir söz demədi. Yadına dostu Fərid düşdü. O, hüquqşunas, həm də savadlı vəkil idi. Başına gələnləri ona danışdı. Dostu ona haqlı olduğu bütün detalları açıqladı və sonda: "Sən filoloqsan, heç olmasa müqavilədəki hərif səhvlərini onların gözünə soxaydın",-deyib gülümsədi.

"İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Dövlət Xidmətinə" təcili göndərişlə məktub ünvanlandı. İki saat keçməmiş ona zəng vurub məsələ ilə maraqlandılar. Hal-qəziyyəni olduğu kimi danışdı. Sonra Vergilər Nazirliyindən onu aradılar. Yanılmamışdı. İşbazlar tətil turu adı ilə insanları aldadıb pullarına sahiblənir, dövlətə bir manat da vergi vermirdilər.

Turizm şirkətindən gələn nömrəyə "Bəli"siz cavab verdi: "Eşidirəm". "Rica edirik, bir bizə baş çəkərmisiniz?". "Çəkərəm"...

"Pişik göz" qız ona elə baxırdı ki, elə bil yeddi arxa dönənini öldürmüşdü. Şirkətin müdiri gəldi və ona Sibir buzundan da soyuq bir salam verdi.

Uşaqlar dənizdən çıxmaq istəmirdilər. Nabran lap hərdən Bodruma bənzəyir. İkisinin də bir tərəfi qumlu sahil, bir tərəfi də yaşıl meşələrdi. Amma bu, Yaradanın lütfüdür. Bəs bizlər Nabranın Bodrum olması üçün nə etmişik?.

Günəş dənizdə batırdı. Vaxtkən kəndə qayıtmaq lazım idi. Yoxsa payı-piyada bu qamışlıqların, qarpız-yemiş qalıqlarının arasıyla evə səhərə ancaq çatardılar...

*Hafiz Təmirov,*
*polis mayoru*

# PƏHLƏVANIMIZ BÜRÜNC MEDAL QAZANDI



**Tbilisi şəhərində idmanın stronqmen növü üzrə beynəlxalq turnir keçirilib. Ölkəmiz turnirdə 3 idmançı ilə təmsil olunub. İdmançılar bu yarışda 105 kiloqrama qədər və 105 kiloqramdan çox çəki dərəcələrində mübarizə aparıblar.**

Milli komandanın tərkibində çəkisi 105 kiloqramdan artıq olan idmançılar arasında gücünü sınayan **Səbail Rayon Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Razim Hüseynov** finaladək irəliləyib. Hər əlində 140 kiloqram olmaqla 280 kiloqramlıq yükü və çiynində 400 kiloqram ağırlığında yükü 20 metr məsafəyə daha tez aparmaqla, 90 kiloqramlıq qanteli tək əldə, 130 kiloqramlıq magistaları hər iki əllə başları üzərinə qaldırmaqla gücləri sınayan idmançılar arasında o, erməni idmançını da üstələyərək bürünc medal qazanıb.

*Zeyni Hüseynov*

# DİN VƏ AQTA BİRGƏ MONİTORİNQLƏR KEÇİRİB

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyi tələblərinə, sanitar-gigiyenik normalara uyğun olmayan heyvan kəsimi məntəqələrinin fəaliyyətini dayandırmaq məqsədi ilə Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə növbəti monitorinq keçirib.**

"Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Prezidentinin Sərəncamının icrası ilə əlaqədar AQTA baytarlıq-sanitariya və gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi ilə məşğul olan şəxslərdən qanunsuz fəaliyyətlərini dayandırmağı tələb edib.

Aparılan yoxlanış tədbirləri nəticəsində Qaradağ rayonunda fəaliyyət göstərən 20-yə yaxın qanunsuz heyvan kəsimi məntəqələrinin sahiblərinə ciddi xəbərdarlıq edilib və yol kənarlarında quraşdırılmış qida təhlükəsizliyi tələblərinə uyğun olmayan kəsim qurğuları icra hakimiyyəti orqanlarının nümayəndələri tərəfindən sökülüb.

Qanunvericiliyin tələblərinə uyğun olaraq, Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə bu cür fəaliyyətlərin aradan qaldırılması üçün monitorinqlər davam etdiriləcək və qanunla müəyyən olunmuş qaydada tədbirlər həyata keçiriləcək.

*C.Natiq*

# XƏZƏRİ ÇİRKLƏNDİRƏNLƏRƏ QARŞI MÜBARİZƏ GÜCLƏNDİRİLİR

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Daxili İşlər Nazirliyi ətraf mühitə zərər vuranların aşkarlanması məqsədilə Xəzər dənizinin sahili boyunca reydlər keçirir. Bu reydlər həm monitorinq xarakterlidir, həm də yerlərdən daxil olan şikayətlərin araşdırılması məqsədi daşıyır.**

ETSN-in Ətraf Mühitin Mühafizəsi Departamentinin və Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları Lənkəranda pozuntu aşkarlayıblar. Onların həyata keçirdikləri reydlər zamanı Lənkəran rayonu Xəzər dənizi sahili zonasında fəaliyyət göstərən "Delfin" ictimai-iaşə obyektində formalaşan məişət-çirkab suların təmizlənmədən birbaşa Xəzər dənizinə axıdıldığı, "Meduza", "Su pərisi", "Panarama", "Məşədi", "Gəl arada bir" ictimai iaşə obyektlərində məişət tullantılarının qalaqlandığı və yandırıldığı müəyyən olunub.

Faktlarla bağlı qanun pozucuları barəsində protokollar tərtib edilib və onlar İnzibati Xətalar Məcəlləsinə əsasən ümumilikdə 3100 manat məbləğində cərimə olunublar. Nöqsanların aradan qaldırılması üçün obyekt sahiblərinə icrası məcburi olan müddətli "məcburi göstəriş"lər verilib.

Xəzər rayonu, Buzovna qəsəbəsinin Xəzər dənizi sahili zolağına çirkab suyun axıdılması ilə bağlı daxil olmuş şikayətlə bağlı da monitorinq və araşdırma aparılıb. Sözügedən ərazidə çirkab suyu axan hissədən götürülən nümunələr üzərində aparılan analizlərin nəticələrinə görə suyun tərkibində çirkləndirici maddələrin normadan artıq olduğu müəyyən edilib.

Faktla bağlı əraziyə cavabdeh olan Bakı Su kanal İdarəsinin rəisi Habil Quliyev barəsində akt və protokol tərtib edilib və o, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, vəzifəli şəxs qismində 2500 manat məbləğində cərimə olunub.

Xəzər dənizinin cənub sahilləri və Sumqayıt ərazisində monitorinqlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis kapitanı*

# BİLİRDİNİZMİ?

◆Bir çoxları Cambridge və yaxud Sorbonne kimi ali təhsil müəssisələrinin dünyanın ən qədim təhsil ocaqları olduğunu düşünürlər. Lakin bu, belə deyil. Ən qədim ali təhsil müəssisəsi Karauin Müsəlman Universitetidir. Əsası bizim eradan əvvəl 859-cu ildə Mərakeşin Fes şəhərində qoyulub.

◆Necə düşünürsünüz, ən çox şagird sayına malik olan məktəb harada yerləşir? Cavabınız Hindistandırsa, haqlısınız. Lukanuda Montessori məktəbində 3 minə yaxın şagird təhsil alır.

◆Dünyanın ən təhsilli ölkəsi Kanadadır. Bu ölkənin əhalisinin 50 faizinin təhsili orta ixtisas təhsilindən aşağı deyil. Kanadadan sonra İsrail – 45 faiz və Yaponiya – 44 faiz gəlir.

◆Hindistanın Sunderbari kəndində qadınların mobil telefondan istifadəsi qadağan edilib. Kənd rəhbərlərinin qərarına görə, telefondan istifadə edən gənc qızlara 10 min rupi, evli qadınlara 2 min rupi cərimə tətbiq edilir.

◆Elmlər doktoru fəxri adını almaq elə də asan deyil, xüsusən də 90 yaşında. Necə ki, bunu Elizabet Eyçelbaum (ABŞ) edib.

◆Əslən İngiltərədən olan Robert Kronin 52 yaşı olarkən Priston Universitetinə Biologiya fakültəsinə qəbul olunub. Buranı yalnız 72 yaşında bitirib. O, universitetə qəbul olarkən həmin təhsil müəssisəsinin ən yaşlı məzunu və dünya rekordçusu adını qazanacağını ağlına belə gətirməyib.

◆Çeroki qraflığındakı məktəbin 1929-cu il məzunları 74 il ərzində hər il görüş təşkil ediblər.

◆Ən uzun dərs 2003-cü ildə Avstraliyada Laidlaw Universitetində aprelin 15-dən 17-dək davam edib. Professor Mari Barrouz 54 saat ardıcıl olaraq biologiyadan mühazirə oxuyub.

◆Dünyada cəmi 2 günlük mühazirə kursuna görə ən yüksək qonorarı Çikaqoda doktor Roland Dant qazanıb – 3.080 000 dollar.

◆Monako yeganə ölkədir ki, hərbi orkestrin üzvlərinin sayı hərbi dəstənin əsgərlərinin sayından çoxdur.

*Ruhiyyə Əliyeva*

# TƏSADÜFİ TANIŞLIĞIN SONU...

**Abşeron RPİ-nin bu günlərdə reallaşdırdığı daha bir peşəkar əməliyyat-axtarış tədbiri barədə ətraflı məlumatı da elə Xırdalana səfərim zamanı öyrəndim...**

Deyirlər ki, bu yay son 120 ilin ən isti günlərini yaşayırıq. Və elə belə isti qovuran günlərin birində Zaur işlədiyi tikintidən aylıq məvacibini alıb evə qayıdırdı. Mənzil başına az qalmış avtobusdan düşdü. Düşünürdü ki, belə isti havada 1-2 qədəh pivə içmək lap yerinə düşər.

Yaxınlıqdakı kafedə əyləşib sifarişini verdi. Tez də fikrini dəyişdi. "Bundan bir şey çıxmaz",-deyib qalxdı. Dayanacaqda növbəti avtobusun gəlməsini gözləyirdi ki, bir qadın ona yaxınlaşıb getməli olduğu yerin səmtini soruşdu. Onların söhbətinə yaxınlıqda dayanan daha iki nəfər də qoşuldu. Bu arada qadına lazım olan avtobus dayanacağa çatdı. Hər üçünə razılığını bildirən xanım yoluna davam etdi. Zaurla sonuncuların söhbətisə hələ davam edirdi.

*-Qardaş, bəs, sən hara gedirsən?*

*-Evə.*

***-Görürəm, yaxşı oğlana oxşayırsan, bəlkə bizimlə bir parça çörək kəsəsən. Hesabı bizlikdi...***

Bir taksiyə əl elədilər. Söylədikləri ünvanda enib, kafeyə keçdilər. Deyib-



gülüb, xeyli söhbətləşdilər.

Artıq gec idi. Zaur yeni tanışlarına hər şeyə görə minnətdarlığını bildirib ayrılmaq istədi.

***-Bir dayan görək, sən yaşadığın qəsəbədə alacağımız var, biz də səninlə gedirik ,-dedilər.***

Taksiyə əyləşib Ceyranbatan qəsəbəsindəki yeni məhəlləyə gəldilər. Nə qədər dilə tutsalar da Zaur onlarla getmədi. Sağollaşıb ayrıldılar. Dalana dönüb bir az getmişdi ki, kiminsə ona arxadan qaçaraq yaxınlaşdığını hiss etdi. Elə dönüb baxmaq istəyirdi ki, başından möhkəm bir zərbə aldı.

Zərbənin gücündən yerə yıxılan Zauru təpikləyərək döyən bayaq tanış olduğu iki nəfər idi. Sonra da üstündə olan pulunu, telefonunu və digər əşyaları alaraq oradan uzaqlaşdılar. Aldığı çoxsaylı zərbələrdən birtəhər özünə gələn yaralı polisə zəng vurdu.

Əməliyyat-istintaq qrupuna rəis müavini, polis polkovnik-leytenantı Mehman Əliyev rəhbərlik edirdi...

Onların yeyib-içdikləri kafedə bu müştərilərin təsadüfi olduqlarını söylədilər. Lakin təcrübəli polis əməkdaşları istifadələrində olan texniki vasitələrdən də yararlanaraq bu quldurluqda şübhəli bilinən, əvvəllər məhkum olunan Nihad Nəcəfovu və Elçin Qasımovu yaxalayaraq istintaqa təhvil verdilər. Onların yaxalanması elə çox vaxt aparmasa da xeyli zəhmət tələb etdi.

Keçirilmiş əməliyyatda CAŞ rəisi, polis polkovnik-leytenantı Əli Almazov və polis mayoru Nurəli Fərəcov xüsusilə fərqləndilər.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*




**OXUCULARIMIZIN NƏZƏRİNƏ: "Mübariz keşikdə"nin internet saytı (www.mk.mia.gov.az) da xidmətinizdə, dünyanın harasında olursanız-olun, yanınızdadır...**

# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4.** 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun 2018 -ci il - 15 sentyabr 2018-ci il**
**(2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |




Rusiyanın Tula şəhərində narkokuryer pişik və sahibi həbsxanaya narkotik apararkən saxlanılıb. Belə ki, pişik bu yaxınlarda həbsdən çıxan keçmiş məhbusa məxsus olub. O, həbsdən çıxdıqdan bir qədər sonra naməlum şəxslər onunla əlaqə saxlayıb və pul qarşılığında pişiyi alıblar. Pişiyə görə pul ödəyən şəxslər bu heyvan növünün daima evə qayıtmaq xüsusiyyətindən istifadə edərək ondan kuryer kimi istifadə etməyi planlaşdırıblar.

Pişiyin yeni sahibləri onun üçün əldəqayırma xalta düzəldib, onun içərisinə narkotik qoyub həbsxananın yerləşdiyi əraziyə yollanıblar. Lakin təyin olunan əraziyə çatmaq onlara qismət olmayıb, yolda onları polis saxlayıb.

Pişik maddi sübut kimi saxlanılaraq müvəqqəti sığınacağa verilib. İki nəfər həbs olunub. Axtarış zamanı onların evindən narkotik maddələr tapılıb.

*****

***Avstraliya yeni polis xidməti yaratmağı planlaşdırır. Hakimiyyət təhlükəli yerlərdə şəkil çəkdirən insanları qorumaq məqsədilə "selfi polisi" bölməsi yaradacaq. Bildirilir ki, polislər əsasən, turistik bölgələrdəki təhlükəli yerlərdə keşik çəkəcək və həyatını riskə ataraq şəkil çəkirənlərə xəbərdarlıq edəcək.***

***Qeyd olunur ki, selfiyə görə ölüm halları statistik siyahıda 6-cı yerdədir.***

*****

Çinin Tzinan şəhərində yol hərəkəti qaydalarını izləyəcək və idarəetmə zamanı mobil telefon və planşetlərdən istifadə kimi pozuntuları qeydə alacaq 4 multikopter rəsmən fəaliyyətə başlayıb.

Layihə üçün eksperimental fəaliyyəti 3 ay davam edəcək polis xidmətinin xüsusi aviasiya dəstəsi yaradılıb.

*****

***Fransada küçədə qadınlara qarşı ədəbsizlik edən, söz atan şəxslər məsuliyyətə cəlb ediləcək. Parlament qadınların ünvanına ədəbsizliyə görə cərimənin tətbiqi haqqında qanunu təsdiqləyib. Ölkənin qadınlar və kişilər arasında bərabərlik məsələləri üzrə dövlət katibi Marlen Şyappanın sözlərinə görə, yeni qanuna müvafiq olaraq, küçədə qadınları təngə gətirməyə görə 90 avrodan 750 avroya qədər cərimə təyin olunacaq.***

***Dövlət katibi onu da qeyd edib ki, yeni tədbirlər Parisdə baş vermiş insidentə cavab olaraq həyata keçirilir. Belə ki, gənc qız onun arxasınca fit çalan şəxsdən susmasını istəyib. O isə qızı vurub.***

***Qeyd edək ki, ötən il Amsterdamda da bu cür qərar qəbul edilmişdi. Belə ki, verilmiş qərara əsasən, burada küçədə qadınlara söz atanlar sərt şəkildə cəzalandırılır, 4 min 100 avro cərimə edilir.***

*****

Kosta-Rika sahillərinə tonla narkotik daşıyan gəmi saxlanılıb. Şübhəli gəmi Sakit Okeanda, ölkə sahilindən 150 km aralıda tutulub. Gəmiyə baxış zamanı içərisində 2 ton kokain olduğu məlum olub. Əməliyyat ABŞ-dan alınan məlumatlar əsasında aparılıb. Bildirilir ki, sərhəd mühafizəçiləri narkotiki müsadirə edib, Kolumbiya vətəndaşı olan 3 ekipaj üzvünü saxlayıblar.

*Natiq Cavadov*

## ELAN

**Hüseynov Tural Cəmaləddin oğluna məxsus 85-CF-465 dövlət qeydiyyat nişanlı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

# Avqustun 1-dən 7-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 798 cinayət qeydə alınmış, onların 166-sı «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 76 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 14 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 7 nəfər, borclu şəxs qismində axtarışda olan 64 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 33 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 10 nəfər ölmüş, 79 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 78 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 190 nəfər saxlanılmışdır.

Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi Nüsrət Şirinov və şəxsi heyəti iş yoldaşları Nərgiz Məhərrəmovaya anası
**SƏDAQƏT xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Nərgiz Məhərrəmovaya anası
**SƏDAQƏT xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lerik RPŞ-nin rəisi Hüseynəli Məlikov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30